# Azərbaycanın diplomatik marşı: COP29-dan ECO zirvəsinə

**Müasir beynəlxalq münasibətlər sistemində dövlətlərin xarici siyasət strategiyaları və regional, qlobal proseslərə təsiri getdikcə çoxşaxəli xarakter alır.**







Beynəlxalq münasibətlər nəzəriyyəsi baxımından regionalizm qloballaşmanın yaratdığı çağırışlara cavab olaraq ortaya çıxır və dövlətlərə ortaq maraqlar ətrafında birləşərək iqtisadi, siyasi və təhlükəsizlik məsələlərində daha effektiv siyasət yürütməyə imkan verir. Cənubi Qafqaz regionunda baş verən fundamental geosiyasi transformasiyalar fonunda Azərbaycan Respublikasının artan strateji əhəmiyyəti və beynəlxalq əməkdaşlıq proseslərində təşəbbüskar mövqeyi xüsusi diqqət çəkir. Suverenliyinin və ərazi bütövlüyünün tam bərpasından sonra yeni inkişaf mərhələsinə qədəm qoyan dövlətimiz regional sülh, sabitlik və iqtisadi rifah gündəliyini fəal şəkildə təşviq edir. Bu strateji kursun kulminasiya nöqtələrindən biri İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşünün Azərbaycanın tarixi və ayrılmaz tərkib hissəsi olan Qarabağın ürəyi Xankəndi şəhərində keçirilməsidir.

**(davamı 6-cı səhifədə)**

# Azərbaycanın diplomatik marşı:




(əvvəli 1-ci səhifədə)

Uzun illər separatizmin və münaqişənin mərkəzi olan məkanın, bu gün Avrasiyanın mühüm iqtisadi platformalarından birinin liderlərini qəbul edən sülh və əməkdaşlıq meydanına çevrilməsi Azərbaycan dövlətinin qətiyyətinin, siyasi iradəsinin və quruculuq əzminin təntənəsidir. Bu, beynəlxalq ictimaiyyətə ünvanlanmış açıq mesajdır. Münaqişə dövrü bitmiş, Cənubi Qafqazda sülh, quruculuq və inteqrasiya dövrü başlamışdır. BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) kimi qlobal miqyaslı tədbirə ev sahibliyi etməsindən sonra Xamkəndi zirvəsinin reallaşması ölkəmizin beynəlxalq tədbirlərin təşkilindəki yüksək potensialını və qlobal gündəmin formalaşmasındakı fəal rolunu bir daha təsdiqləyir. Bu tədbir, həmçinin ECO məkanında iqtisadi əlaqələrin dərinləşdirilməsi, yeni nəqliyyat-logistika dəhlizlərinin potensialının reallaşdırılması və "yaşıl enerji" kimi prioritet sahələrdə əməkdaşlığın gücləndirilməsi üçün unikal imkanlar yaradır. Beləliklə, Xankəndi sammiti bütün ECO regionu üçün strateji əhəmiyyət daşıyan, üzv ölkələr arasında həmrəyliyi gücləndirən və Avrasiyada yeni iqtisadi əməkdaşlıq konturlarının cızılmasına xidmət edən fundamental hadisədir. Xankəndi Zirvəsi Azərbaycanın diplomatik qabiliyyətini, dağıdılmış əraziləri qısa müddətdə bərpa edərək beynəlxalq əməkdaşlıq mərkəzinə çevirmək gücünü nümayiş etdirən parlaq nümunədir. Azərbaycanın müstəqil və balanslı xarici siyasəti ilə beynəlxalq əməkdaşlığa töhfələri bəhrəsini verməkdədir.

COP29-un ardınca Azərbaycanda daha bir beynəlxalq tədbir reallaşdı. Bu dəfə işğaldan azad edilən Qarabağın mərkəzində - Xankəndidə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının (ECO) 17-ci Zirvə görüşü dünyanın diqqətini növbəti dəfə Azərbaycana yönəltdi. Sammitin iştirakçı tərkibinin yüksək səviyyəsi tədbirin əhəmiyyətini göstərən mühüm amildir. İştirakçılar arasında Türkiyə, Özbəkistan, Qırğızıstan, Tacikistan, İran, Şimali Kipr Türk Cümhuriyyətinin prezidentləri, o cümlədən Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif, Birləşmiş Ərəb Əmirliklərinin sənaye və qabaqcıl texnologiyalar naziri, COP28-in Prezidenti Sultan Əhməd Əl-Cabir, Türkmənistan Nazirlər Kabineti Sədrinin müavini, xarici işlər naziri Rəşid Meredov, Əfqanıstan Baş nazirinin müavini Əbdül Qəni Baradar, Nigeriyanın büdcə və iqtisadi planlama naziri Abubakar Atiku Baqudu və digər rəsmi şəxslər vardı. Belə mötəbər tədbirin Xankəndidə həyata keçirilməsi bir tərəfdən Azərbaycanın suverenliyinin bütün ərazilərində tam bərpa olunduğunun bir daha təsdiqi, digər tərəfdən Qarabağın dirçəlişinə və regionun sülh məkanına çevrilməsinə verilən beynəlxalq dəstəyin bariz nümunəsi idi. ECO sammiti Azərbaycanın siyasi, iqtisadi və mədəni baxımdan regionun aparıcı liderlərindən biri olduğunu göstərir. Xankəndidə keçirilən sammit bütün dünyaya Azərbaycanın qonşu və tərəfdaş xalqların rifahını düşünən, əməkdaşlıq yaradan ölkə olduğu mesajını verir. Bu zirvə regionda yeni dövrün başlanğıcıdır: sülh, rifah və məsuliyyətli liderlik dövrü.

Prezident İlham Əliyev Zirvə görüşündəki proqram xarakterli çıxışında bu məsələyə xüsusi toxunaraq, tədbirin Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası olduğunu vurğuladı. Bu ifadə, əslində, Azərbaycanın keçdiyi mürəkkəb tarixi yolu, qazandığı Zəfəri və gələcəyə yönəlmiş quruculuq strategiyasını ehtiva edir. Prezidentin çıxışında "Qədim Azərbaycan torpağı olan Qarabağa, Xankəndiyə xoş gəlmisiniz" sözləri sammit iştirakçılarına, eləcə də bütün dünyaya ünvanlanmış tarixi bəyanat idi. Dövlət başçısı vurğuladı ki, Ermənistan işğalından azad edilmiş torpaqlarımızda artıq bir neçə mühüm beynəlxalq tədbir keçirilib. 2023-cü ildə Şuşada ECO-nun Nazirlər Şurasının iclası, 2024-cü ildə Türk Dövlətləri Təşkilatının ilk qeyri-rəsmi Zirvə görüşü və bu ilin may ayında Laçında Azərbaycan, Türkiyə və Pakistan rəhbərlərinin üçtərəfli Zirvə görüşü və s. Bu tədbirlər, Azərbaycanın azad edilmiş əraziləri sürətlə bərpa etdiyini və onları beynəlxalq əməkdaşlıq üçün açdığını nümayiş etdirən ardıcıl siyasətin tərkib hissəsidir. Bu, həm də Azərbaycanın postkonflikt dövründəki narrativini formalaşdırmaq məqsədi daşıyır. Azərbaycan liderinin sözlərini qardaş Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğan da təsdiq edərək, bu tarixi hadisəyə yüksək qiymət verdi: "Xankəndi şəhərinin sülh mərkəzi olacağına ürəkdən inanıram. Sammitin Xankəndidə keçirilməsi buna ayrı məna və önəm qatır". Türkiyə liderinin sözləri, iki qardaş ölkənin strateji müttəfiqliyinin və regionun gələcəyinə dair ortaq baxışlarının təzahürü idi. Bu, həmçinin Türkiyənin Cənubi Qafqazda sülh və sabitliyin təmin olunmasında Azərbaycanla birlikdə fəal rol oynamağa hazır olduğunu göstərdi. Sammitin yüksək səviyyədə təşkil olunduğunu bəyan edən Pakistanın Baş naziri Məhəmməd Şahbaz Şərif Prezident İlham Əliyevə tədbirin uğurla təşkil olunması üçün təşəkkürünü bildirdi: "Tarixi və gözəl Xankəndidə bizə göstərilən diqqət və səmimi qonaqpərvərliyə görə Prezidentin bütün komandasına təşəkkür edirəm". Pakistanın mövqeyi, Azərbaycanın ərazi bütövlüyünə hər zaman birmənalı dəstək verən ölkə ilə strateji tərəfdaşlığın dərinliyini nümayiş etdirir.

Azərbaycanla ECO-nun dərin və strateji əhəmiyyətli əməkdaşlıq telləri bağlayır. 1992-ci ildə təşkilata üzv olan Azərbaycan qurumun fəaliyyətində hər zaman aktiv iştirak etmiş, regional inteqrasiya proseslərinə mühüm töhfələr vermişdir. Azərbaycanın ECO-ya üzvlüyü müstəqilliyinin ilk illərində xarici siyasət prioritetlərinin formalaşdığı dövrə təsadüf edir və ölkənin regional iqtisadi strukturlara inteqrasiya əzmini göstərirdi. Keçən dövr ərzində Azərbaycanın ECO ölkələri ilə ticarət dövriyyəsi davamlı olaraq artmışdır. Statistik məlumatlar göstərir ki, bu ölkələrlə ticarət əlaqələri Azərbaycanın qeyri-neft ixracatında mühüm yer tutur. Azərbaycanı digər üzv ölkələrlə iqtisadi, ticarət, enerji, nəqliyyat, turizm, kənd təsərrüfatı və ekologiya sahələrində geniş əməkdaşlıq edir. Bura mədəni, elmi və humanitar sahələrdə qarşılıqlı fəaliyyət də daxildir. Rəsmi Bakı bu əməkdaşlığı hər zaman yüksək qiymətləndirib və onun daha da dərinləşdirilməsi üçün ardıcıl addımlar atıb. Azərbaycan Prezidenti İlham Əliyev bu barədə deyib: "Azərbaycan İqtisadi Əməkdaşlıq Təşkilatının fəal üzvüdür. İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə münasibətlərimiz dostluq və qarşılıqlı hörmətə əsaslanır. Biz, həmçinin beynəlxalq platformalarda, o cümlədən İslam Əməkdaşlıq Təşkilatı və Qoşulmama Hərəkatı çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatına üzv dövlətlərlə səmərəli əməkdaşlıq edirik". Bu, Azərbaycanın xarici siyasətində çoxtərəfli diplomatiyaya və regional təşkilatlarla işə verdiyi önəmin göstəricisidir. Azərbaycan illər ərzində ECO çərçivəsində nəqliyyat dəhlizlərinin inkişafı, ticarətin asanlaşdırılması və enerji təhlükəsizliyi kimi prioritet məsələlərdə təşəbbüslərlə çıxış etmişdir. Xüsusilə, Şərq-Qərb və Şimal-Cənub beynəlxalq nəqliyyat dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan tranzit potensialını ECO məkanının ümumi rifahı üçün səfərbər etməyə çalışır. Bakı-Tbilisi-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı kimi infrastruktur layihələri Mərkəzi Asiya və ECO ölkələri üçün Avropaya etibarlı çıxış imkanları yaradır. Bu layihələr ECO-nun əsas məqsədlərindən biri olan üzv ölkələr arasında ticarət həcminin artırılmasına xidmət edir.

Son illərdə qlobal gündəmin ən aktual məsələlərindən birinə çevrilən iqlim dəyişikliyi və "yaşıl enerji"yə keçid prosesi ECO çərçivəsində də əməkdaşlığın prioritet istiqamətlərindən biridir. Azərbaycan bu sahədə də liderlik nümayiş etdirərək zəngin bərpaolunan enerji potensialını regional əməkdaşlıq üçün vasitəyə çevirməyə çalışır. Azərbaycan ECO çərçivəsində "yaşıl enerji" təşəbbüslərinə də böyük diqqət yetirir. Xüsusilə işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının "yaşıl enerji zonası" elan edilməsi və burada həyata keçirilən irimiqyaslı layihələr Azərbaycanın strateji baxışını ortaya qoyur, həm də iqtisadi diversifikasiya və gələcəyə yönəlmiş inkişaf modelini nümayiş etdirir. Bu kontekstdə, ECO-ya üzv Qazaxıstan, Azərbaycan və Özbəkistan arasında enerji sistemlərinin birləşdirilməsi və "yaşıl enerji"nin Xəzər dənizinin altı ilə Avropaya ixracı layihəsi üzrə sənədin imzalanması xüsusi əhəmiyyət kəsb edir. Bu təşəbbüs regionda alternativ enerji mənbələrinin səmərəli istifadəsini, enerji təhlükəsizliyinin artırılmasını və dayanıqlı inkişafın təmin olunmasını hədəfləyir. Bu məqalayihə Mərkəzi Asiyanın zəngin külək və günəş enerjisi potensialını Azərbaycan vasitəsilə dünya bazarlarına çıxarmaqla, bütün regionun enerji xəritəsini dəyişdirmək gücünə malikdir. Bu, həm də enerji geopolitikası baxımından mühüm addımdır, çünki region ölkələrinin enerji ixracı marşrutlarını şaxələndirməyə və onların qlobal enerji bazarındakı mövqelərini gücləndirməyə imkan verir.

Azərbaycan 44 günlük Vətən müharibəsində qazandığı şanlı Qələbə ilə regionda yeni geosiyasi reallıq yaradıb və bu, ECO çərçivəsində əməkdaşlıq üçün də tamamilə yeni üfüqlər açır. Otuz illik işğala son qoyulması və kommunikasiyaların açılması imkanı təşkilatın əsas məqsədlərindən olan ticarət və nəqliyyat əlaqələrinin inkişafı üçün tarixi fürsət yaradır. Xüsusilə, Zəngəzur dəhlizinin reallaşması bütün Türk dünyasını və ECO məkanını birləşdirən, Şərq-Qərb nəqliyyat dəhlizinin rəqabət qabiliyyətini kəskin şəkildə artıran strateji layihədir. Bu dəhliz, Mərkəzi Asiya ölkələrinin Türkiyə və Avropa bazarlarına səmərəli yolla çıxışını təmin edəcək. Xankəndidə keçirilən ECO sammiti dünyanın diqqətini Qarabağda gedən müsbət dəyişikliklərə, sürətli bərpa və quruculuq işlərinə yönəldəcək. Beynəlxalq ictimaiyyət bölgənin artıq münaqişə deyil, sülh, sabitlik və iqtisadi dirçəliş məkanı olduğunu görəcək. Bu, həm də Azərbaycanın gücü hesabına həyata keçirdiyi bərpa işlərinin miqyasını və keyfiyyətini nümayiş etdirmək üçün imkandır. "Ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyaları əsasında yenidən qurulan yaşayış məntəqələri, postkonflikt dövrünün innovativ və dayanıqlı modelini təqdim edir. Liderlərin görüşündə aparılan müzakirələr və qəbul edilən qərarların da bütövlükdə region üçün strateji nəticələri olacaq. Xankəndinin qlobal müzakirələr mərkəzinə çevrilməsi Azərbaycanın sülh və inkişaf naminə atdığı addımların beynəlxalq səviyyədə tanınmasının və dəstəklənməsinin göstəricisidir. Bu, region üçün yeni dövrün başlanğıcıdır. Bu dövr əməkdaşlıq, qarşılıqlı anlaşma və davamlı inkişaf prinsipləri üzərində qurulacaq. Azərbaycanın prosesdəki liderliyi regionun gələcəyi üçün böyük ümidlər vəd edir və Xankəndi Zirvəsi bu tarixi yolda atılmış möhkəm və qətiyyətli addım kimi yaddaşlara həkk olunacaq.

**Yusif ŞƏRİFZADƏ,**
**"Respublika".**

Respublika .- 2025.- 8 iyul (№ 137).- S.1;6.